# Qardaşlığın qəhrəmanlıq dastanı

**15 sentyabr**

***Bakının qurtuluş günüdür***



**15 sentyabr 1918-ci ildə Azərbaycanın dövlətçilik və müstəqillik tarixinə heç zaman öz əhəmiyyətini itirməyəcək bir səhifə yazıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin həyata keçirdiyi siyasətin nəticəsi kimi Qafqaz İslam Ordusu tərəfindən ölkənin iqtisadi, mədəni mərkəzi olan Bakı şəhəri yad qüvvələrin işğalından azad edildi və mərkəzləşdirilmiş Azərbaycan dövlətinin rəsmi paytaxtına çevrildi. Bununla Cümhuriyyət hökumətinin rəsmi dəvəti ilə qardaşlıq köməyinə gəlmiş türk hərbi qüvvələri ilə Azərbaycanın milli hərbi qüvvələri bazasında yaradılmış Qafqaz İslam Ordusunun respublikanın ərazi bütövlüyü uğrunda apardığı mübarizədə tarixi qələbəyə imza atıldı.**

Təşkil edildiyi gündən Qafqaz İslam Ordusu Gəncədən Bakıya qədər çətin mübarizə yolu keçdi. Bu mübarizənin zirvəsində isə sözsüz ki, Bakı şəhərinin azad edilməsi dayanırdı.

Qafqaz İslam Ordusu tərəfindən şəhər üzərinə ilk dəfə 1918-ci il avqust ayının 5-də hücum edildi. Lakin Bakı şəhərinin yad qüvvələrdən təmizlənməsi üçün həyata keçirilən hücum gözlənilən nəticəni vermədi. Çünki Bakıya hakim olan qüvvələr Qafqaz İslam Ordusunun hücumunun qarşısını almaq üçün şəhərə ingilis hərbi qüvvələri dəvət etmişdilər. Həmin qüvvələr avqust ayının 4-də Bakıya yetişərək şəhər ətrafındakı müdafiə mövqelərinə çıxmışdılar. Bu da şəhəri tutduğu yad qüvvələrin gücünü kifayət qədər artırmışdı.

Döyüşün nəticələri məlum olan kimi, Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy bir neçə qərargah zabiti ilə birlikdə Gəncədən Bakı ətrafına gəldi və onlar döyüşün gedişini ciddi şəkildə araşdırdılar. Aparılan araşdırmalar göstərdi ki, Bakı üzərinə həyata keçirilən ilk genişmiqyaslı hücumun uğursuzluğa düçar olmasının əslində, bir obyektiv səbəbi olmuşdu. Belə ki, Qafqaz İslam Ordusu qısa müddət ərzində Gəncədən Bakıya qədər ağır döyüşlər keçirmiş, şəxsi heyət yorulmuş, silah-sursat təchizatında çatışmazlıqlar yaranmışdı. Bununla belə, şəxsi heyətdə Bakı şəhərinin tezliklə azad edilməsi ilə bağlı böyük bir istək var idi və şübhə edilmirdi ki, Qaraməryəmdən başlayaraq uğursuzluq girdabına düşmüş erməni-daşnak və digər qüvvələr Bakı ətrafında da Qafqaz İslam Ordusunun müzəffər yürüşünün qarşısını ala bilməyəcəklər.

Bakı üzərinə hücumda iştirak edən qüvvələrin əsasını təşkil edən 5-ci türk piyada diviziyasının vəziyyəti ilə tanış olduqdan sonra Nazim bəy müşahidə etdikləri barədə Qafqaz İslam Ordusunun komandanı Nuru Paşaya belə bir teleqram göndərdi: "Əsgər yorğun, zayiat fazla, mənəviyyat qırıqdır. Düşmən təqviyə almış, hərəkətində intizam var və miqdarı 1000-ə yaxındır. ...5-ci Qafqaz diviziyasının mövcudunun yarısı zayiat və xəstəlik nədəniylə zaye etmişdir".

Bakı üzərinə növbəti uğurlu hücumun təşkil edilməsi üçün zəruri hazırlıq tədbirlərinin müəyyənləşdirilməsinə və həyata keçirilməsinə başlandı. Cəbhə bölgəsində aparılan təhlillərdən sonra Azərbaycana əlavə türk diviziyasının göndərilməsi haqqında məsələ qaldırıldı. Bu məsələ Qafqaz İslam Ordusu komandanlığı tərəfindən də dəstəkləndi və bununla bağlı Türkiyə Hərbi Nazirliyinə müraciət edildi. Bakı şəhərinin ən qısa zamanda azad olunmasını arzulayan Osmanlı Türkiyəsinin hərbi naziri Ənvər paşa da bu təkliflə razılaşaraq 15-ci piyada diviziyasının Bakı ətrafına göndərilməsi haqqında Sərəncam verdi.

Eyni zamanda Azərbaycan daxilində qüvvələrin yenidən cəbhəyə səfərbər edilməsi üçün lazımi işlər görüldü. Bu məqsədlə Bakı ətrafındakı milli qüvvələrə kömək üçün Ağdaş alayının bölmələri bura gətirildi, Qazax və Gəncə ətrafından da Bakı ətrafına canlı qüvvə göndərildi. 5-ci türk diviziyasının komandiri Mürsəl paşanın fikrincə, həmin qüvvələrin Bakı cəbhəsinə gətirilməsi oradakı şəxsi heyətin əhvali-ruhiyyəsinə kömək edə bilərdi. Avqustun 6-da Qafqaz İslam Ordusu komandanlığından bildirildi ki, bir hücum yüksəlməsinə dörd tüfəng bölüyü və rus pulemyotları ilə silahlanmış bir bölük Gəncədən Bakıya doğru yola salınıb. Elə həmin günlərdə Nuru Paşa bildirdi ki, 7 zabit və 234 əsgərdən ibarət milli qüvvələrdən təşkil edilmiş başqa bir dəstə də Bakı ətrafına göndərilib.

Bunlardan başqa, Bakıətrafı kəndlərdən də könüllülərin toplanması üçün iş aparılırdı. Bu məqsədlə Azərbaycan korpusuna daxil olan Ləzgi süvari alayının bir bölüyünə və bir neçə türk zabitinə müvafiq tapşırıqlar verilərək Maştağa kəndinə göndərildi. Onların səyi ilə Bakıətrafı kəndlərdən xeyli könüllü toplandı və bu qüvvələr Maştağa dəstəsi adlanan ayrıca bir dəstədə birləşdirildilər.

Həlledici hücumun başlanmasından əvvəl şəxsi heyətin əhvali-ruhiyyəsinin yüksəldilməsi üçün müvafiq addımlar atıldı. 5 avqust döyüşündən bir neçə gün sonra türk hərbçiləri arasında xüsusi vərəqələr yayıldı və türk əsgərləri də Bakı şəhərinin azad edilməsi üçün qətiyyət göstərməyə çağırıldı. Həmin vərəqələrdə yazılırdı: "Bakı deyilən milyon və milyard şəhərinin qapıları önündə günlərdən bəri zəfər quşunun qanadını yaxalamaq istəyən Türk ordusuna!

...Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan Bakıda sənin üçün hazırlanan süfrələr müsafirsiz qalacaq, sənin üçün tikilən əlbəsəni düşmən geyəcəkdir. Sənin üçün yapılan adaklar yerinə gətirilməyəcək, sənin ayağına kəsiləcək qurbanlar düşmənə qalacaqdır. Sənin üçün hazırlanan altun kisələrini düşmən yağma edəcəkdir. Əgər sən bu şəhəri alamasan islam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, yenə mübarək islam qanları qırmızı şərablar kimi vəhşi işgəncələr uğrunda axacaqdır. Sənin zəfərin üçün duaya qalxan əlləri zalımlar kəsəcəklər...".

Həlledici hücumun başlandığı günə qədər Nuru Paşanın göstərişi ilə Bakı ətrafında qüvvələri yenidən qruplaşdırıldı, müxtəlif manevrlər həyata keçirildi və mövqe döyüşləri davam etdirildi. 40 gün ərzində keçirilən mövqe döyüşləri ilə Nuru Paşa düşmən qüvvələrinə ciddi zərbə vurdu və onları daimi gərginlik altında saxlamağa müvəffəq oldu. Mövqe döyüşləri ilə cəbhə xətti uzadıldı, düşmənin qüvvələri parçalandı və Bakı şəhərinin mühasirəsi daraldı. 5 avqust döyüşünün uğursuzluğunun bir səbəbi də onda idi ki, Qafqaz İslam Ordusu özünün bütün qüvvələrini Qurd qapısı istiqamətində cəmləmişdi. Bu istiqamət Bakı şəhərinə ən yaxın məsafə idi və güman edilirdi ki, bu istiqamətdən qısa bir zamanda Bakı şəhərinə daxil olmaq mümkündür. Buna görə Sentrokaspi hökuməti və ingilis komandanlığı da özünün bütün qüvvələrini bu istiqamətdə cəmləməklə müqavimət gücünü artırmışdılar. 5 avqust döyüşünün nəticələrinin təhlilindən sonra isə qərara alındı ki, Bakı üzərinə hücumun coğrafiyası genişləndirilsin, Bakı ətrafındakı kəndlər və mövqelər düşmən qüvvələrin nəzarəti altından çıxarılsın. Ona görə də avqust ayı ərzində Bakı ətrafında mövqe döyüşləri aparıldı və bu döyüşlərdə yeni və münasib mövqelər ələ keçirilməklə, həm də şəxsi heyətin mübariz əhvali-ruhiyyəsi bərpa edildi, özünəinamı geri qaytarıldı.

Döyüş bölgəsinə gəldikdən sonra Nuru Paşa ilə Əliağa Şıxlinski şəhər ətrafındakı vəziyyətlə tanış oldular, komandirlərin məruzələrini dinlədilər. Mövcud vəziyyət qiymətləndiriləndən sonra sentyabr ayının 13-də saat 17:11-də Hacı Həsən kəndinin qərbindəki müşahidə məntəqəsində Nuru Paşa Bakı üzərinə həlledici hücum barədə döyüş əmrini imzaladı. Əmrə əsasən nəzərdə tutulmuşdu ki, sentyabrın 13-dən 14-nə keçən gecə Bakı şəhərinin azad edilməsi üçün həlledici hücum başlansın.



Qafqaz İslam Ordusunun Bakıya yürüşü

Qarşıda ağır bir döyüş dayanırdı. Qurd qapısı üzərindən hücuma keçmək elə də asan deyildi. Bu sərt təpəliklərə dırmaşmaq üçün yalnız ensiz bir yol var idi. Qoşunlar isə daha geniş bir cəbhədə hərəkət etməli idilər. Onlar gecə ikən Şubanı yüksəkliklərindən enməli, dəmir yolunu keçdikdən sonra sərt təpəliklərə dırmaşmalı idilər. Hələ gündüz ikən bu təbii maneələri adlamaq çox böyük zəhmət tələb edirdi. Gecə isə tam səssizliyə riayət edilməsi, düşmənin duyuq düşməsinə yol verilməməsi lazım idi.

Hazırlanmış hücum planına əsasən 5-ci türk diviziyası və ona verilmiş milli hərbi dəstələr Qurd qapısının Bayıldan başlayaraq təxminən Biləcərinin qərb ətəklərinə qədər olan hissəsindən hərəkət etməli idi. Biləcəri-Sabunçu-Əhmədli çevrəsi boyunca isə 15-ci türk diviziyası və ona verilmiş milli hərbi qüvvələr hücuma keçməli idilər. Azərbaycanın milli hərbi qüvvələrinin və könüllü dəstələrinin böyük bir hissəsi bu istiqamətdən hücuma qoşulmuşdu. Nəzərdə tutulmuşdu ki, əsas zərbə Qurd Qapısı istiqamətindən vurulsa da Bakının şimal-şərq çevrəsi boyunca mövcud olan düşmən qüvvələr də tədricən şəhərə sıxışdırılsın.

Baxmayaraq ki, Qurd qapısı yüksəklikləri ilə topları sürüyüb çıxarmaq elə də asan deyildi, amma göstərilən əzmkarlıq, qətiyyət və yüksək sürət hələ gecə ikən ilk müdafiə səngərlərini ələ keçirməyə və orada möhkəmlənməyə imkan verdi. Hücum elə bir sürətlə həyata keçirildi ki, hətta Qafqaz İslam Ordusunun komandanlığı üçün də onun nəticələri gözlənilməz oldu. Qurd qapısı istiqamətində əldə edilən uğur 15-ci diviziyanın mövqelərində də təkrarlandı.

Sonradan uğurla davam etdirilən hücum nəticəsində bütün istiqamətlərdə, bütün döyüş sahələrində düşmənin müqaviməti qırıldı. İngilis qüvvələrinin komandanlığı gün ərzində baş verən döyüşlərdən sonra Qafqaz İslam Ordusunun hücumlarının qarşısının alınmasının qeyri-mümkünlüyünə əmin oldu. Ona görə də sentyabrın 14-də axşam saat 8-də ingilis qüvvələrinə geri çəkilmək əmri verildi. Bununla da "Sentrokaspi" rəhbərləri ümid bağladığı əsas qüvvələrdən məhrum oldular. Ayın 14-də Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən ələ keçirilməmişdisə də, artıq onun taleyi həll olunmuşdu.

Sentyabr ayının 14-ü üçün qarşıya qoyulan tapşırığını yerinə yetirən Qafqaz İslam Ordusu qüvvələri həmin gecəni istirahət etməklə bərabər, həm də son döyüşə hazırlıqda keçirdilər. Ayın 15-də Qafqaz İslam Ordusu qüvvələri hücumu davam etdirdilər və qarşıya qoyulmuş vəzifənin həllinə daha da yaxınlaşdılar. Çıxış yolunun qalmadığını görən şəhərdəki qüvvələrin rəhbərliyi Qafqaz İslam Ordusu rəhbərliyi ilə əlaqə yaradılması üçün yollar aramağa başladı. Bu məqsədlə İranın Bakıdakı konsulu Səadülvüzəradan Bakı üzərinə hücumun dayandırılması üçün vasitəçilik etməsi xahiş olundu. Bu təklifi alandan sonra Səadülvüzəra iki nəfəri məktub və ağ bayraqla döyüş mövqelərinə göndərdi. Tərəflər arasında aparılan danışıqlardan sonra Sentrokaspi rəhbərliyi Bakı şəhərini Qafqaz İslam Ordusunun nəzarəti altına verməyi öz üzərinə götürdü. Beləliklə, Bakı şəhəri bütünlüklə Qafqaz İslam Ordusu tərəfindən azad edildi.

Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa Bakı əməliyyatının gedişini belə xatırlayırdı: "Sentyabrın 13-də düşməndə şimaldan hücum edəcəyimiz fikrini yaratmaq üçün birləşmələrin hamısı Yanardağ-Binəqədi bölgəsində toplanmışdı. Həmin gün düşmən təyyarələri vəziyyəti öyrənmişdilər. Sentyabrın 13-dən 14-nə keçən gecə 38-ci alay və Azərbaycan könüllüləri 15-ci firqə komandanının rəhbərliyi ilə şimal cəbhəsini tərk etmişdi. Digər qüvvələr, yəni Rumıniya cəbhəsindən gələn və mükəmməl halda olan 15-ci firqənin 56-cı alayı, 5-ci firqənin alayları və 36-cı firqənin 107-ci alayı şəhərin qərbindəki dəmiryoluna yaxın yerlərdə toplaşdılar. Məqsədimiz düşmənə əsas hücumun şimaldan olacağını çatdırmaqla onun fikrini azdırmaq idi. Buna görə də Bakının qərb cəbhəsinə qarşı topladığımız birləşmələr silah işlətmədən, sadəcə qumbara və süngü hücumu ilə sığınacaqlarda qorunan düşmən mövqelərini bir-birinin ardınca ələ keçirmişdi. Şimal birləşmələrimizə də çoxlu silah-sursatla düşmənin ehtiyat birləşmələrinə hücum tapşırığı verilmişdi. Hər iki cinah tapşırığı tam yerinə yetirmişdi. Günəş doğmadan Bakının qərb yamacları artıq tamamilə hərbi birləşmələrimizin əlinə keçmişdi. Bu əməliyyatda hücum edən əsas hərbi birləşmələrimiz az bir itki ilə məqsədinə çatsa da şimal birləşmələrimiz ciddi itkilərə məruz qalmışdı. O gün axşama qədər, Bakının qərb və şimalındakı mövqelər düşməndən təmizlənmişdi. Çoxlu pulemyot və zirehli maşınlarla təchiz olunmuş düşmənlə küçə döyüşünə girməklə çox itki verəcəyimiz ehtimalına görə gecəni şəhərdən kənarda keçirmişdik. Ancaq top atəşi ilə düşmənin limanları və müqavimət nöqtələri atəş altında saxlanmışdı. Sentyabrın 15-də günortadan sonra əvvəlcə 56-cı alay şəhərə daxil olmuş və mühüm obyektlər ələ keçirilmişdi. Hədəfimiz olan Bakı alınmış, bu mühüm əməliyyat sona çatmışdı".

Bakı şəhərinin azad edilməsi həm Azərbaycan ictimaiyyətinin, həm də Türkiyə dövlət rəhbərlərinin, xüsusilə Ənvər Paşanın çox böyük sevincinə səbəb olmuşdu.



15 sentyabr 1918-ci il. Qafqaz İslam Ordusu Bakıda

O, Nuru Paşaya göndərdiyi teleqramda yazırdı: "Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini ən böyük müsərrətlə qarşılarım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpər, şəhidlərimizə fatihələr ithaf edərim".

Bakının azad edilməsi xəbərini M.Ə.Rəsulzadə İstanbulda olarkən eşitdi. O, dərhal Azərbaycan hökumətinin sədri F.Xoyskiyə teleqram göndərib Azərbaycan xalqını və hökumətini bu tarixi hadisə münasibətilə təbrik etdi. Teleqramda deyilirdi: "Hürriyyət və istiqlaliyyət uğrunda çarpışan türk millətinin istinadgahı olan Bakının qurtuluşu münasibətilə rəisi bulunduğunuz hökumət ərkanını candan təbrik edər və salamlaram".

Azərbaycan milli mücadiləsinin liderlərindən biri olan Nəsib bəy Yusifbəyliyə görə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri Fətəli xan Xoyski Bakının azad edilməsi uğrunda türk hərbçilərinin göstərmiş olduqları xidmətləri Nuru paşaya xitab edərkən bir neçə kəlmə ilə belə dəyərləndirmişdi: "Millət sizə minnətdardır". N.Yusifbəylinin fikrincə, Azərbaycan durduqca bu üç kəlmə azərbaycanlıların dilində və qəlbində yaşayacaqdır.

Bununla, Bakı şəhəri azadlığına qovuşdu və onun tarixində müstəqil bir xalqın baş şəhəri olmaq kimi şərəfli bir səhifənin başlanğıcı qoyuldu.

**Mehman SÜLEYMANOV,**
**Milli Müdafiə Universitetinin professoru, tarix elmləri doktoru.**